BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2013

# JURNALİSTİKA

UOT 070

## AZƏRBAYCAN MƏTBUATŞÜNASLIĞI TARİXİ ARAŞDIRMALARDA

**Q.D.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***Journalism.bsu.edu.az***

*XIX əsrin sonu və XX əsrdə zəngin və çoxşaxəli inkişaf yolu keçən Azərbaycan mətbuatının tarixi təcrübəsi, indiki müstəqillik dövrümüzdə daha çox maraq doğurur və əhəmiyyət kəsb edir. Ona görə bu tarixi təcrübənin müasir əhəmiyyəti barədə tam təsəvvür yaratmaq üçün yenidən klassiklərimizə müraciət olunmalı və obyektiv təəssürat yaradılmalıdır. Azərbaycan mühərrirləri mətbuata dair elmi-nəzəri görüşlərini yeni dövrə uyğunlaşdıraraq, təkmilləşdirdilər və milli mətbuatşünaslığın yaranmasına nail oldular.*

**Açar sözlər:** mənbəşünaslıq, mətbuatşünaslıq, yeni baxış, siyasi proseslər, ideologiya

Bir əsrdən çox tarixə malik olan mətbuatımızın araşdırılmasının da tarixi çox qədimdir. Mətbuatımızda özünəməxsus yeri və rolu olan klassiklərimizdən H.Zərdabi, C.Hacıbəyli, Ü.Hacıbəyli, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə, C.Məmmədquluzadə, F.Ağazadə, F.Köçərli, A.Sur, Ə.Abid, S.Hüseyn və başqaları mətbuat tariximizin araşdırılmasında da mühüm işlər görmüşlər, maraqlı dəyərli tədqiqatlar aparmışlar, bir sözlə zəngin bir irs qoyub getmişlər. Lakin sovet dövründə zamanın ideoloji prinsiplərinə uyğun olaraq uzun illər bu faydalı irsdən uzaq düşmüşdük. Çünki hakim partiyanin təsiri, tələbi ilə mətbuat tarixinin araşdırılmasında, xüsusilə mətbuat orqanının məqamı, ideoloji, siyasi, mənəvi yönümü ilə bağlı, qərəzli, qeyri-obyektiv fikirlərə yol verilirdi. Onun ya səthi, ya da qeyri-obyektiv təbliğatı aparılırdı. Bu təbliğat bir daha sübut edirdi ki, KİV-imiz 70 il ərzində yalnız və yalnız dövlətin, hakim partiyanın siyasətinin ifadəçisi olaraq, partiyalılıq prinsipini əsas götürmüş, insanın azad iradəsinin ifadəsinə imkan yaratmamış, yalnız bir qüvvənin – hakimyyətin iradəsinə xidmət etmişdir.

Heç də təsadüfü deyil ki, mətbuatı “təbliğatçı, təşkilatçı və təşviqatçı” adlandıran V.İ.Leninin Xalq Komissarları Sovetinin sədri kimi ilk imzaladığı

dekret “Mətbuat haqqında” (4, 257) olmuşdur. Birmənalı olaraq bu dekretə əsasən inqilaba qoşulmayan, bolşevizm ideyalarını təbliğ etməyən mətbuat orqanları “əksinqilabçı” damğası ilə qapanır, onu yaradanlar ”xalq düşməni” adlandırılırdı. Beləliklə, uzun illər SSRİ-i ərazisində, xüsusən də bizim ölkəmizdə mətbuat partiyalılıq prinsipini əsas götürmüş, insanın azad iradəsinin ifadəsinə imkan yaratmamış, yalnız siyasi ideologiyasının kor-koranə xidmətçisinə çevrilmişdir. Bu yanlış siyasi ideologiyanın təbliğatçısına çevrilmiş sovet mətbuatı həm də 70 ilin saxta tarixini yazaraq, əvvəlki dövrləri təhrif etmiş, bir çox tarixi faktlara qəsdən, bilərəkdən göz yummuş və yanlış yazmışdı.

Azərbaycan mətbuatının və mətbüatşünaslığının tarixinə dair sanballı əsərlərin müəllifi olan Ceyhun Hacıbəylinin təbirincə desək, “səhv ideologiyaya xidmət etdiyi üçün bu “tarix” yaşamadı (5, 67).

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Unutmaq olmaz ki, tarix ideoloji qəliblər, siyasi yararlıqlaq prizmasından deyil, həqiqət nöqteyi-nəzərindən dəyərləndirilməlidir.

Bizim də tariximizdə dəyərləndiriləcək belə məqamlar çoxdur. Son vaxtlar tariximizin bu vaxtadək öyrənilməmiş səhifələri açılır, üzə çıxarılır, tədqiq edilir. Belə məqamlardan biri də lazımınca öyrənilməmiş, daha doğrusu birtərəfli və qərəzli tədqiq olunuş 1918-1919-cu illər tariximizdir. Halbuki, uzun illər müstəqillik hüququndan məhrum edilmiş xalqımız məhz bu illərdə istiqlaliyyət qazanmış, öz müstəqil milli dövlətini-Azərbaycan Demokratik Respublikasını yaratmışdır.

Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan istiqlal mücadiləsi tarixini XX əsrlə məhdudlaşdıranlar yanılırlar. Çünki 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti türk xalqları tarixinə birinci müstəqil dövlət kimi daxil olmuşdur. Məlumdur ki, türk xalqları qədim və yeni tarixin heç bir dövründə dünya meydanında müstəqil dövlətsiz olmamışdır. Bu isə digər türk xalqları kimi Azərbaycan xalqının da milli müstəqillik ideyalarının yaranmasını şərtləndirən amillərdən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik arzularını daha da gücləndirdi.

Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı milli azadlığa, suveren dövlətçiliyə nail olmaq arzusunun gerçək ifadəsi olan və cəmi 23 ay çəkən Azərbaycan Xalq Cümhuriyyəti ürəklərdə elə bir məşəl alovlandırdı ki, təqribən 70 il ərzində hökmranlıq etmiş totalitar kommunist rejiminin amansız cəza-repressiya maşını da bu məşəli söndürə bilmədi. Professor Şirməmməd Hüseynov demişdir: “Bu danılmaz bir həqiqətdir ki, müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı, indiki müstəqil Azərbaycan da yaranmazdı. Biz bu tarixi həqiqəti əsaslandırmaqla tariximizin 1918-1920-ci illər kimi çox mürəkkəb, ziddiyyətli və möhtəşəm dövrünü elmi cəhətdən tədqiq etməliyik” (2, 59).

Bu möhtəşəm dövr Azərbaycan mətbuatı tarixində özünəməxsusluğu ilə seçilmiş və xalqın ictimai, siyasi, mədəni, iqtisadi, ədəbi azadlığı tarixində çox mühüm işlər görmüş, xalqın milli arzularının və istəklərinin ifadəçisi olmuş, ətrafında dövrünün nüfuzlu ziyalılarını birləşdirmişdir. M.Ə.Rəsulzadə,

M.B.Məhəmmədzadə, Üzeyir və Ceyhun Hacibəyli qardaşları, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.B.Məmmədquluzadə, Ə.M.Topçubaşov, H.İ.Qasımov kimi dövrün böyük qələm və əqidə sahiblərinin əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayarkən, bu əqidə və məslək sahiblərinin əksəriyyəti, "xalq düşməni", "vətən satqını" kimi adlandırılaraq təqiblərə, sürgünlərə, mühacir həyatı yaşamağa məruz qaldılar. Özləri kimi fəaliyyətləri də vətəndə "qara siyahıya" düşərək yasağa çevrildi. Uzun illər tədqiqatlardan kənarda qaldı. Təlatümlü, ziddiyyətli hadisələrlə dolu olan 20-ci yüzilliyin əvvəlləri kimi, sonu da mürəkkəbliyi, ziddiyətliyi ilə tarixə düşdü.

"1980-ci illərin ortalarından etibarən yuxarılardan başlanan "yenidənqurma", "aşkarlıq", "yeni düşüncə" hərəkatı möhkəm və sarsılmaz görünən sovet imperiyasını çalxaladı, aşağıları güclü laxlatdı. Bir ideologiyanın, bir partiyanın, bir mülkiyyət formasının diktaturasına son qoyuldu"(3,190). Xalqımız öz tarixinə, keçmişinə, milli azadlığına, müstəqilliyinə can atdı. Milli azadlıq tariximizin ən şərəfli dövrü olan 1918-1920-ci illərə maraq daha çox artdı. Milli dövlətçilik, azadlıq tariximizin təbliğində mühüm rol oynayan milli mətbuatın tədqiqinə maraq çoxaldı. Çünki cümhuriyyət tariximiz kimi, bu dövr mətbuatımızın inkişaf problemlərini də ümummilli tariximizdən ayırmaq düzgün olmazdı. Aparılan araşdırmalar da göstərir ki, bu dövr Azərbaycan mətbuatının uğurları birbaşa Azərbaycan istiqlalı, dövlət müstəqilliyi ilə bağlıdır. Odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqda dolğun elmi məlumat əldə etmək üçün həmin dövrdə milli mətbuatımızın inkişaf xüsusiyyətləri ilə qarşılaşdığı problemlərin həlli yollarının araşdırılması zəruridir. Fikrimizcə, Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatının tarixi Azərbaycan tarixi qədər qaranlıqdır, öyrənilməmişdir və fundamental tədqiqə ehtiyac var. Amma unutmaq olmaz ki, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradılması Azərbaycan mətbuatının uzun illər apardığı ideya və məfkurə mücadiləsinin nəticəsi idi. Ona görə də, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tarixi və milli mətbuatının tarixini bir-birinə sıx bağlayan tellər var. Çünki Azərbaycan mətbuatı öz inkişafında mədəni maarifçilikdən, milli-mədəni dirçəlişə, milli oyanışdan milli azadlıq hərəkatına doğru zəngin bir yol-keçmişdir. Azərbaycan ictimai-siyasi fikrinin həm qaynağı, həm daşıyıcısı, həm də geniş xalq kütləsi içərisində təbliğatçısı olaraq jurnalist zümrəsi milli hərəkatın önündə gedir, onun istiqamətləndiricisi rolunda çıxış edirdi. Bu mənada Azərbaycan demokratik dövlətinin qurulmasında mətbuatın xidmətləri böyük idi. Məhz bunun üçün bu dövr milli mətbuatının tarixinin düzgün, obyektiv öyrənilməsi olduqca vacibdir.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə həsr olunmuş əsərləri tarixşünaslıq baxımdan təhlil etmək, bu dövrün qərəzli şəkildə, bilə-bilə təhrif edilmiş siyasi hadisələrin obyektiv elmi mənzərəsini yaratmaq uzun illər kölgədə qalmışdır. Çünki Azərbaycan Xalq Cümhuriyyəti mövzusuna ayrı-ayrı dövrlərdə həsr olunmuş əsərlər ideoloji mövqedən asılı olaraq, bir-birinə daban-dabana zidd olan iki konsepsiyanın yaranmasına gətirib çıxarmışdı.

Birinci konsepsiyanı əks etdirən əsərlər Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə yazılmışdır. Cümhuriyyət dövrü jurnalistikası haqqında obyektiv məlumatlar M.Ə.Rəsulzadənin, Ə.Abidin, M.B.Məmmədzadənin, C.Hacıbəylinin, Ə.Münzibin əsərlərində və eləcə də bir sıra toplu və məqalələrdə öz əksini tapır. Bu baxımdan Ə.M.Topçubaşovun "Azərbaycan təşəkkülü", M.Ə.Rəsulzadənin "Azərbaycanın təşkilində Müsavat", A.Ziyadxanlının "Azərbaycan", R.Vəkilovun "Azərbaycan Respublikasının yaranma tarixi", C.Hacıbəylinin "İlk müsəlman Respublikası Azərbaycan", Y.V.Çəmənzəminlinin "Azərbaycan muxtariyyatı" əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Bu əsərlər böyük bir tarixi mərhələnin siyasi-ictimai mənzərəsini bütövlükdə obyektiv şəkildə əks etdirir. Bir sözlə bu əsərlərdə Azərbaycan Respublikasının yaranması, onun daxili və xarici siyasəti, dövlətin qurulmasında mətbuatın rolu haqqında təsəvvür yaradır. Həmin əsərlərin Azərbaycan tarixşünaslığı üçün əhəmiyyəti ondadır ki, hadisələr bilavasitə Azərbaycan Xalq Cümhuriyyətini quranlar tərəfindən qələmə alınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti tarixi ilə bağlı ilk araşdırmalar 1920-ci ilin aprelindən sonra davam etdirilməmiş, yazılmış əsərlərin müəllifləri ölkəni tərk etməyə məcbur olmuş, əsərləri isə sovet rejiminin siyasi qurbanlarına çevrilmişdir.

Məlumdur ki, sovet hakimiyyəti illərində elmi araşdırmalara xüsusi diqqət yetirilmişdir. Tədqiqatlarda bolşevik mətbuatı idealizə olunmuş, milli demokratik mətbuata isə yer verilməmiş, ya da bir qayda olaraq pislənmişdir.

Sovet Rusiyası Azərbaycanın bu şərəfli dövrünü ləkələmək, məhv etmək və Azərbaycan xalqını anadangəlmə inqilabçı kimi qələmə vermək, Azərbaycanın işğalını pərdələmək üçün hər bir çirkin siyasətə əl ataraq tarixi saxtalaşdırırdı. Belə ki, mərkəzdən Qırmızı Professorlar İnstitutunun bir qrup "tarixçi" məzunu Bakıya göndərilir. Bu tarixçilər Cümhuriyyət dövrü fəaliyyətdə olan milli mətbuatı birmənalı olaraq qarayaxmalara, təhqirlərə məruz qoyaraq, bolşevik mətbuatını dəhşətli dərəcədə şişirdərək yüksəklərə qaldırdılar. Mərkəzi "tarix"çilərdən sonra isə vətən tarixçiləri Azərbaycanın 1917-1920-ci illər tarixini o dərəcədə saxtalaşdırmışlar ki, 23 ay fəaliyyət göstərmiş dövləti öz adı ilə çağırmağı belə özlərinə qəbahət bilirdilər. Ölkəmizdə 1920-ci illərin ortalarından 1980-ci illərin axırlarına kimi 1917-1920-ci illərlə bağlı yüzlərlə, minlərlə əsərlər yazmış vətən "tarix"çilərinin heç biri Azərbaycan Xalq Cümhuriyyəti ifadəsini işlətməmişlər. Əksinə, "Müsavat bandası", "Müsavat rejimi", "mülkədar, xan-bəy rejimi", " türk agentləri", " işğalçı satqınlar" kimi sözlər onların saxta əsərlərini bəzəmişdir.

Onu da qeyd etmək yerinə düşər ki, vətən tarixçilərinə nisbətən mərkəzdən göndərilmiş Qırmızı Professorlar İnistitutunun məzunlarından R.Ratqauzer, S.Sef, A.Rayevski, A.Duber, A.Steklov, N.Smirov, S.Belonko, A.Manbelov və başqaları öz əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətilə bağlı obyektiv münasibət bildirmişlər. Ona görə həmin əsərlər ümumilikdə mənbəşünaslıq baxımından mühüm əhəmiyyət kəsb edir. Ya

bilərəkdən, ya da bilməyərəkdən müəyyən məsələlərdə obyektivlik nümayiş etdirdiklərindən bu tarixçilərin bir çoxlarının əsərləri sovet dövründə bağlı qapı arxasında saxlanılırdı. Etiraf edək ki, 80-ci illərin ortalarından sonra ölkədə baş verən hadisələrlə bağlı ziyalılarımız Azərbaycan Xalq Cümhuriyyəti haqqında müəyyən məqamlara münasibət bildirmək üçün 1920-1930-cu illərin tarixşünaslığına müraciət etməli oldular. Çünki mühacir və xarici tarixşünaslıq Azərbaycandan çox uzaq idi. Sovet rejimi xariclə hər cür əlaqəni qadağan etmişdi. Ölkə tarixşünaslığının əsərləri isə hər cür reallıqdan uzaq idi.

Tarixçi R.Ratqauzer təkidlə oxucusunu inandırmağa çalışırdı ki, Müsavat hökuməti türklərdən və ingilislərdən asılı olan bir rejim idi. Və yaxud "tarixçi alim" belə iddia edirdi ki, "1918-ci ilin martından sonra qurulan Bakı Sovetinin Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmayıb, Bakıda vətəndaş müharibəsi ilə başlanan döyüşlər son nəticədə milli qırğına çevrilib" (6,150).

Dövrün digər tarixçisi S.Sefin milli partiya kimi Müsavata münasibəti nə qədər mənfi olsa da, onun Azərbaycan Milli hərəkatında güclü siyasi qüvvə olduğunu etiraf etməyi diqqəti cəlb edir. Hansı ki, 1930-1980-ci illər vətən tarixçilərimiz "Müsavat"ı milli ədavəti qızışdırmaqda, xalqa xəyanət mövqeyi tutmaqda və türklərə satılmaqda günahlandırırdılar (7,34).

Biz yuxarıda da qeyd etdik ki, sovet dövrü tədqiqatlarında birmənalı olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatına obyektiv münasibət bildirilməmiş, əksinə reallıqdan çox uzaq, qeyri-obyektiv fikirlər söylənilmişdir, xüsusən də, öz "tarixçi alim"lərimiz tərəfindən yazılan əsərlərdə. Hakim partiyaya xoş gəlmək üçün bu dövrün mətbuatı və onun yazarları həddən ziyadə təhqirlərə, qarayaxmalara məruz qalıb. Azərbaycan Xalq Cümhuriyyəti 1930-1980-ci illər tarixşünaslığında bir dövlət kimi qəbul edilmədiyindən yazılan əsərlərdə nəinki onun mətbuatına, hətta adına da rast gəlmək mümkün deyil. Belə ki, 1917-1920-ci illərdə baş verən bütün hadisələr boşevik partiyasının və onun mətbu orqanlarının fəaliyyəti ilə bağlıdır. Ona görə də, 1950-1980-ci illərdə bu sahəyə aid yazılan əsərlərin təhlilini vermək həm çətin, həm asandır. Asanlığı ondadır ki, bu dövrdə 1917-1920-ci illərin təhlilinə həsr olunmuş və faktik materiallara istinad edən əsər yazılmamışdır. Çətinliyi ondadır ki, Azərbaycan tarixində qeyd olunan dövrdə ən çox əsər 1917-1920-ci illərə həsr olunub. Onların hamısını isə tədqiq etmək ayrıca bir tədqiqat işidir. Dövrün bütün tədqiqatlarında Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən hadisələr Leninin inqilabi fəaliyyəti ilə əlaqələndirilir. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı 20-30-cu illərdə yazılmış əsərlərdən fərqli olaraq 50-80-ci illərdə problem tamamilə təhrif olunmuş, büsbütün unudulmuşdur. Əslində 20-30-cu illər tarixşünaslığından fərqli olaraq 50-80-ci illərdə bu problemlə məşğul olan tarixçilərin əksəriyyəti qanı-qanımızdan, canı-canımızdan olan azərbaycanlı tarixçilər olduqları üçün onlardan obyektivlik baxımından çox şey gözləmək olardı.

Tədqiqat zamanı daha çox Azərbaycan mətbuatı tarixinin tədqiqi ilə məşğul olan tədqiqatçıların əsərlərinə diqqət yetirdik. Sovet dövrünün dəstixəttinə uyğun yazılan bu əsərlər haqqında söhbət açmağa dəyməz. Qərəzli və

obyektivlikdən çox uzaq olan bu əsərlərin müəllifləri əsasən Ə.Nazim, M.Quliyev, Ç.Bəkirzadə, H.Şahgəldiyev, M.Hüseyn, Ə.Vəliyev, X.Vəzirov, V.Axundov, S.Əliyev, N.Axundov, Ə.Quliyev, R.Mahmudov, H.Sərkisov, Z.İbrahimov, N.Bağırov, X.Rəfiyev, R.Tağıyev, V.Məmmədov, F.Hüseynov, İ.Hüseynovdur. Bu müəlliflər istər Cümhuriyyətdən əvvəl, istər sonra milli ruhlu mətbuatımıza qarşı amansız bir mövqe tutaraq onun unudulması üçün sanki yarışa girmişdilər.

## ƏDƏBİYYAT


1. Əliyev M. M.Ə.Rəsulzadə və "Azərbaycan Demokratik Respublikası". Bakı: Yazıçı, 1992, 290 s.
2. Hüseynov Ş. Müstəqilliyin çətin yolu. Reallıqlar, düşüncələr (əlavələrlə ikinci nəşr). Bakı: Elm, 2009, 537 s.
3. Hüseynov Ş. Mənəvi irisimiz və gerçəklik. Bakı: Adiloğlu, 2004, 524 s.
4. Lenin V.İ. Əsərləri, XXVII cild. Bakı: Azərnəşr, 1975, 450 s.
5. Tahirli A. İdrak işığında. Bakı: Ozan, 2010, 573 s.
6. Ратгаузер Р. Революция и гражданская война в Баку. Часть первая, 1917-1928 гг.Баку: 1927, Qızıl Şərq, 210 s.
7. Сеф С. Как большевики пришли к власти в 1917-1918 гг. В Бакинском районе. Баку: 1927 Революция 1917 года в Закавказье (документы, материалы)


## АЗЕРБАЙДЖАНСКОЕ ПЕЧАТОВЕДЕНИЕ В ИСТОРИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ


**Г.Д.ГУЛИЕВА**


### РЕЗЮМЕ


Опыт истории аэербайджанской печати, прошедший в конце XIXвека и весь XX век богатый и варьирующий путь своего развития, в нынешним периоде независимости, вызывает еще больший интерес и значение. По этой причине, для создания полноценного мнения о современном значение исторического опыта необходимо вновь обратиться к нашим классикам и формировать объективное впечатление. Аэербайджанские эмигранты, приспособив свои научные взгляды в отношение печати в соответствие с новой эрой разработали и добились создания национального печатоведения.



**Ключевые слова:** исторические исследования, печатоведение, новый взгляд, политические процессы, идеология


## THE AZERBAIJANI PRESS IN HISTORICAL STUDIES


**G.D.GULIYEVA**


### SUMMARY


Historical experience of the Azerbaijani press is much more interesting and significant in the present period of independence for its great and varied development in the beginning of the XIX-XX centuries. For this reason to have a whole idea on a modern value of historical experience one should turn back to our classics to have an objective idea. Azerbaijani immigrants improved their scientific theoretical views by coordinating them to a modern period, in this way, they achieved the national press foundation.



**Key words:** origin, press, a new vision, political processes, ideology